# ZÜHURUN ZƏMİNƏLƏRİ

---

<"xml encoding="UTF-8?>

# ZÜHURUN ZƏMİNƏLƏRİ

Dünyada hər bir hadisə və varlıq onun zəminə və şəraitlərinin həyata keçməsi ilə vücuda gəlir, onlar olmadıqda heç bir varlıq üçün vücud imkanı olmur. Hər torpaq bitkinin cücərib böyüməsi üçün zəmin və şəraitə malik deyil, hər su və hava bitkinin inkişafı üçün münasib deyildir. Əkinçi o vaxt torpaqdan yaxşı məhsul əldə etməyə ümidvar olar ki, məhsulun əldə edilməsi üçün lazım olan şəraitləri tədarük etmiş olsun.

Bu əsasa görə, hər bir inqilab və ictimai hadisə də onun zəminə və şəraitlərinə bağlıdır. İran İslam inqilabı da onun müqəddimati işlərinin gerçəkləşməsi ilə qələbəyə çatdı. İmam Məhdi (ə)-ın dünya səviyyə ki, ən böyük hərəkat olan inqilab və qiyamı da həmin qanuna tabedir və onun zəminə və şəraitləri həyata keçmədən gerçəkləşməyəcəkdir.

Bu sözdən məqsəd budur ki, İmam Məhdi (ə)-ın qiyam və hökumət işi dünyaya hakim olan qarşılıqlı əlaqə prinsipindən istisna olunmur və o həzrətin islahatçı hərəkatı adi amil və səbəblər olmadan mö`cüzə yolu ilə, həyata keçəcəyi təsəvvür olunmamalıdır. Əksinə, Qur`an tə`limləri və mə`sumların buyurduqlarına görə ilahi qayda-qanunlar bu əsasda olmuşdur ki, dünyanın bütün işləri özünün təbii məcrası, adi səbəbləri vasitəsi ilə həyata keçsin.

İmam Sadiq (ə) buyurur: «Allah Təala işləri yalnız (onun üçün olan təbii) səbəblər vasitəsilə icra edir.»[1]

Bir nəfər İmam Baqir (ə)-a ərz etdi: «Deyirlər ki, İmam Məhdi (ə) qiyam edən zaman bütün işlər onun iradəsinə uyğun olaraq baş verəcəkdir.» İmam buyurdu: «Əsla belə deyildir! Canım əlində olan şəxsə and olsun ki, əgər bir kəs üçün işlərin öz-özünə sahmana düşməsi qərara alınsaydı, onda Peyğəmbəri Əkrəm(s) də belə edərdi.»[2]

Əlbəttə, qeyd olunan kəlamın mə`nası bu deyildir ki, Məhdi (ə)-ın böyük qiyamında qeybi və asimani köməklər olmayacaqdı; əksinə məqsəd bundan ibarətdir ki, ilahi köməklərlə yanaşı, adi zəminələr, amil və şəraitlər də həyata keçməlidir.

Bu müqəddimədən sonra əvvəlcə zühurun zəminələrini tanımalı, sonra onun həyata keçməsi uğrunda hərəkət etməliyik.

İmam Məhdi (ə)-ın dünya səviyyəli inqilab və qiyamının ən mühüm zəminəsi dörd şeydən ibarətdir ki, hər birini ayrı-ayrılıqda araşdıracağıq.

## A) Proqramlar

Aydındır ki, hər bir islahatçı və mütərəqqi qiyam və hərəkatın iki proqrama ehtiyacı vardır:

1-Cəmiyyətdə mövcud olan əyriliklərə və eybəcərliklərə qarşı hərtərəfli mübarizə aparmaq üçün kamil bir proqram; bu da qüvvələrin daha yaxşı sahmana salınması yolu ilə baş verə bilər.

2-Cəmiyyətin bütün ehtiyacları ilə mütənasib olan kamil bir qanun belə ki, bu ədalətli bir hökumət quruluşunda insanların fərdi və ictimai hüquqlarının hamısına təzminat verir, cəmiyyətin inkişafa doğru hərəkatını (ideallara çatmaq) üçün təcəssüm edir.

Həqiqi islamdan ibarət olan Qur`an tə`limləri və mə`sumların sünnəsi İmam Zəman (ə)-ın ixtiyarında olan ən yaxşı qanun və proqramlardan ibarətdir və o Həzrət həmin əbədi ilahi proqramlar əsasında əməl edəcəkdir.»[3]

Elə bir kitab ki, onun ayələrinin məcmusu insan həyatının bütün yönlərini, onun maddi və mə`nəvi ehtiyaclarını tə`min edəcək bir şəkildə böyük Allah tərəfindən nazil olmuşdur. Buna əsasən, o həzrətin dünya səviyyəli inqilabı hökumət qanunları və proqramları nəzərindən misilsiz əsaslara malikdir və heç bir islahatçı hərəkat və qiyamlarla müqayisə olunası deyildir. Bu müddəanın şahidi budur ki, bugünkü dünya bəşər qanunlarını təcrübə etdikdən sonra onların zəif və süst olmasını etiraf etmiş və tədrici olaraq asimani qanunları qəbul etməyə hazırlaşır.

Amerika siyasətçilərinin müşaviri Alavin Tafler dünya cəmiyyətlərini islah və bu böhranı həll etmək üçün «üçüncü dalğa» adlı nəzəriyyəni irəli sürmüşdür.[4] Lakin eyni halda, bu barədə çox qəribə etirafları vardır. O cümlədən deyir:

Bizim –qərb cəmiyyətlərinin qarşılaşdığı problemlərin siyahısı sona yetməzdir. Sənaye və mədəniyyət qurumlarının biri digərinin ardınca süqut etməsini onların layaqətsizliyini və fəsadını görməkdən əlavə, onun əxlaqi süqutunun izləri də insan vicdanına əziyyət verir. Nəticədə əsaslı dəyişikliklər etmək üçün təzyiq və narazıçılıq dalğaları fəzanı doldurmuşdur. Bu təzyiqlərə cavab vermək üçün minlərlə proqram və layihə tökülmüşdür və hamısı da iddia edir ki, əsaslı və hətta inqilabı yönə malikdirlər. Amma dəfələrlə yaradılan qayda-qanunlar, proqramlar, layihələr və

yeni-yeni göstərişlər –hamısı bizim problemlərimizi həll etmək məqsədi ilə yaradılmışdır –sadəcə gümandan başqa bir şey deyildir və bizim problemlərimizin vəziyyətini daha da gərginləşdirir. Bu acizlik və ümidsizlik hisləri baş alıb gedir və heç bir faydası da yoxdur, heç bir əsaslı tə`sirə malik deyildir. Bu hisələr hər bir demokratik quruluş üçün təhlükəlidir. Ağ atalı süvarinin varlığı ilə əlaqədar atatlar sözünü daha çox irəli çəkirlər.»[5]

## B) Rəhbərlik

Bütün qiyamlarda rəhbərə olan ehtiyac həmin qiyamın ən ibtidai və zəruri məsələlərindən biridir. Qiyam nə qədər geniş səviyyəli, nə qədər yüksək hədəflərə malik olsa, qüdrətli və o hədəflərə mütənasib olan bir rəhbərin varlığına da daha artıq ehtiyac duyulur.

Dünya səviyyəsində zülm və haqsızlıqla mübarizə, haqq-ədalətin və bərabərliyin hakimiyyəti üçün agah, bacarıqlı və ürəyiyanan bir rəhbərin varlığına ehtiyac duyulur ki, düzgün və qətiyyətli idarəçiliyə malik olsun. Bu da inqilabın əsl dayaqlarından biridir. Bütün peyğəmbərlərin və ilahi övliyaların xülasəsi olan həzrəti Məhdi (ə) böyük qiyamın rəhbəri ünvanı ilə sağ olub hər bir şeyə nəzarət edir. O, yeganə bir rəhbərdir ki, qeyb aləmi ilə əlaqəyə malik olmasına görə bütün aləmə və onda mövcud olan əlaqələrə tam agahdır, öz zamanının insanları arasında ən elmli bir şəxsdir. Peyğəmbər (s) buyurmuşdur: «Agah olun! Məhdi bütün elmlərin varisidir. O, bütün elmlərə əhatəlidir.»[6]

O yeganə bir rəhbərdir ki, bütün qeydlərdən və şərtlərdən azaddır, yalnız Pərvərdigari-aləmin razılığını nəzərdə tutur. Buna əsasən, onun dünya səviyyəli qiyam və hökuməti də rəhbər baxımından ən yaxşı bir şəraitdə qərar tutur.

## V) Köməkçiləri

Zühurun gerçəkləşməsi üçün lazım olan zəminə və şəraitlərdən biri də layiqli köməkçilərin varlığıdır ki, onlarda dünya səviyyəli hökumətin idarə olunması və qiyama arxa durmaq üçün lazımdır. Dünya səviyyəli inqilab asimani rəhbərin vasitəsilə baş verən zaman onunla mütənasib olan köməkçilər də tələb edir. Digər tərəfdən köməkçi olmaq iddiası edən hər kəsində meydanda hazır olması müyəssər olmaz. Bu barədə aşağıdakı hadisəyə diqqət yetirin:

İmam Sadiq (ə)-ın şiələrindən olan Səhl ibni Həsən Xorasani o həzrətə deyir: «Sizə nə mane olmuşdur ki, öz danılmaz haqqınızı (ümmətə rəhbərliyi) əlinizə almırsınız, halbuki yüz minlərlə şiə atına minmiş və əlində qılınc tutmuş halda sizə kömək etməyə hazırdır?!» İmam göstəriş verdi ki, təndirdə od yandırsınlar, atəş şö`lələnməyə başlayanda Səhlə buyurdu: «Ey Xorasanlı!

Gir təndirin içinə və otur!» İmamın ona qəzəbləndiyini güman edən Səhl bəhanə gətirərək dedi: «Ağa, məni bağışlayın, bu odla mənə işgəncə verməyin!» İmam buyurdu: «Sənin günahından keçdim!»

Bu zaman İmamın həqiqi şiələrindən olan Harun Məkki içəri daxil olub salam verdi. İmam onun salamını aldıqdan sonra heç bir müqəddimə olmadan buyurdu: «Təndirə gir otur!»

Harun Məkki dərhal və heç bir sual soruşmadan bu işi yerinə yetirdi! İmam Sadiq (ə) həmin halda xorasanlı kişi ilə danışır və Xorasan barəsində müəyyən xəbərlər verirdi. Sanki bu işləri özü şahid olmuşdur. Bir müddətdən sonra Səhlə buyurdu: «Ey Xorasanlı, ayağa qalx və təndirin içinə bax!» Səhl ayağa qalxıb təndirin içinə baxır və Harunu görür ki, odun şö`lələri arasında diz üstə oturmuşdur!

İmam Səhlə buyurdu: «Xorasanda Harun kimi neçə nəfər tanıyırsan?!» Xorasanlı şəxs deyir: «Allaha and olsun ki, bir kəs belə tanımıram!» Həzrət buyurur: «Agah ol! Biz beş nəfər belə köməkçi tapmadığımız bir vaxtda qiyam etmərik. Biz hansı bir vaxtın qiyam üçün münasib olduğunu daha yaxşı bilirik!»[7]

Buna əsasən, yaxşı olardı ki, İmam Məhdi-ın (ə) köməkçilərinin xüsusiyyətlərini din rəhbərlərinin rəvayətləri əsasında araşdıraq, nəticədə öz məqamımızı tanıyaraq nöqsanlı hallarımızı aradan qaldırmaq fikrində olaq.

---

[1] Mizanul-hikmət, beşinci cild, hədis 8166

[2] Qeybəti Nömani, 15-ci bab, hədis 2

[3] İmam Baqir (ə), İmam Məhdi (ə)-ı vəsf edərək buyurur: «O həzrət Allahın kitabı – Qur`an əsasında əməl edəcək və qarşılaşdığı elə bir çirkinlik olmayacaqdır ki, onu inkar etməsin.» «Biharul-Ənvar», 51 cild, səh. 141

[4] O inanır ki, indiyə qədər dünya səviyyəsində iki böyük inqilab – əkinçilərin inqilabı və sənətkarların inqilabı icad olunmuşdur. Üçüncü dalğa isə sənayenin fövqündə olan elektoronik inqilaba yetişməkdədir

[5] İntizar jurnalı, 2-ci il 3-cü nömrə səh 98, Taflerin «Yeni mədəniyyətə doğru» kitabından, Məhəmməd Rza Cə`fərinin tərcüməsi.

[6] Nəcmus-saqib, səh. 193

[7] Səfınətul-bihar, 8-ci cild, səh. 681